

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 238 (23.400)

*18 dekabr 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenskinin dekabrın 17-də rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Vladimir Zelenskini qarşılayıb.

Dövlətimizin başçısının Ukraynanın Prezidenti Vladimir Zelenski ilə təkbətək görüşü olub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Vladimir Zelenskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Görüş başa çatdıqdan sonra hər iki dövlət başçılarının iştirakı ilə Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimi olub.

Sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Həmin gün Bakıda Azərbaycan-Ukrayna biznes forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski biznes forumda iştirak ediblər.

* * *

Dekabrın 17-də Prezident İlham Əliyev Qırğız Respublikası parlamentinin – Joqorku Keneşin sədri Dastanbek Cumabekovu qəbul edib.



## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasının çağırılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyası 2019-cu il dekabr ayının 21-də saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2019-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsinin təsdiq edilməsi
3. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2020-ci il büdcəsinin təsdiq edilməsi
4. İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsinin təsdiq edilməsi
5. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı
6. Naxçıvan Muxtar Respublikasının qanunlarında dəyişikliklər edilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 dekabr 2019-cu il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya fəaliyyətində peşəkarlığın və keyfiyyətin artırılması, şəffaflıq və obyektivliyin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirləri noyabr ayında da davam etdirmişdir.*

## İmtahanların şəffaflığı təmin edilir

Ötən ay dövlət ümumi təhsil müəssisələrində 148 vakant vəzifənin tutulması üçün elan edilmiş müsabiqənin test imtahanlarında 220 namizəd iştirak etmiş və müvafiq keçid balını toplamış 120 namizədin sənədləri təyinat üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə göndərilmişdir. Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə gənc dövlət qulluqçuları arasında Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş intellektual oyunlar üzrə çoxnövçülük turniri keçirilmiş, turnirdə 31 dövlət orqanından 186 gənc dövlət qulluqçusu iştirak etmişdir. Komissiya tərəfindən Maliyyə Nazirliyinin müraciəti nəzərə alınmaqla vakant sektor müdiri vəzifəsinin tutulması üçün 1 nəfərin iştirakı ilə test imtahanı keçirilmiş, dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 5 müsahibədə komissiya əməkdaşlarının nümayəndə qismində iştirakları təmin edilmişdir. Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada istehsalat təcrübəsində olmuşlar.

Ötən ay komissiya tərəfindən dövlət qulluğu, eləcə də müəllimlərin işə qəbulu üçün təşkil edilmiş hazırlıq kurslarında 43, müəllimlərin işə qəbulu və dövlət qulluğu üçün keçirilən sınaq imtahanında isə 40 nəfər iştirak etmişdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Mərkəzi Seçki Komissiyasında seminar-treninq keçirilib



*Dekabrın 17-də Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən seçki dairələrinin veb-kameralar quraşdırılmış seçki məntəqələrinin və seçkilərə 5 gün qalmış yaradılması nəzərdə tutulan qapalı seçki məntəqələrinin məntəqə seçki komissiyalarının sədr və katibləri üçün seminar-treninq keçirilib.*

Seminarı giriş sözü ilə açan Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkilərinə hazırlıqla əlaqədar görülən işlərdən danışıb.

Sonra muxtar respublikada fəaliyyət göstərən dairə seçki komissiyalarının sədrləri rəhbərlik etdikləri seçki dairələri üzrə seçki məntəqələrinin və seçicilərin sayı, mülki və qapalı seçki məntəqələrində səs verəcək hərbi qulluqçular barədə məlumat veriblər.

Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov çıxışında bildirib ki, ölkəmizdə keçirilən seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunması üçün bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunmuş nailiyyətlərdən geniş istifadə olunur ki, bu da seçki prosesini əvvəldən axıradək izləməyə, geniş və hərtərəfli müşahidə aparmağa və beləliklə, aşkarlığın daha dolğun təminatına şərait yaradır. Səsvermə günü istənilən internet istifadəçisi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi saytına daxil olmaqla, səsvermənin gedişini canlı izləyə bilər. Ümumiyyətlə, seçki məntəqələrində veb-kameraların quraşdırılması Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının “Seçki məntəqələrində veb-kameraların quraşdırılması və istifadəsinə dair Qaydalar”a uyğun olaraq təşkil edilib və keçirilən seçkilərdə aşkarlıq institutunun daha geniş təmin edilməsi məsələlərini əhatə edir.

Mərkəzi Seçki Komissiyasının sədri seçki günü məntəqə seçki komissiyaları üzvlərinin vəzifələri barədə məlumat verərək bildirib ki, məntəqə seçki komissiyasının sədri komissiyanın işinə ümumi rəhbərlik edir, komissiya üzvləri arasında iş bölgüsü aparır, səsvermənin başlanmasını və qurtarmasını elan edir, seçki məntəqəsində səsvermə qaydalarına əməl olunmasını, qanunla onun üzərinə qoyulmuş digər vəzifələri həyata keçirir. Katiblər isə sədrin göstərişlərini və sədr tərəfindən onlara verilən səlahiyyətləri yerinə yetirir.

Seminarda Mərkəzi Seçki Komissiyasının əməkdaşı Elşən Heydərli səsvermə prosesi, seçkinin demokratik və şəffaf keçirilməsi ilə bağlı məntəqə seçki komissiyası üzvlərinin və seçicilərin üzərlərinə düşən vəzifələr haqqında ətraflı məlumat verib, səsvermə başa çatdıqdan sonra nəticələrin məntəqə seçki komissiyası üzvləri tərəfindən müşahidəçilərin müşayiəti ilə hesablanması qaydalarından da danışıb.

5 saylı Şahbuz-Babək Dairə Seçki Komissiyasının əməkdaşı Asim Quliyev səsvermənin nəticələrinə dair yekun protokolun doldurulması qaydalarını izah edərək qeyd edib ki, məntəqə seçki komissiyasının protokolu Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış üç nüsxədən ibarət xüsusi dövlət sənədidir. Protokolu tərtib edərkən son dərəcə səliqəli, həddindən artıq diqqətli olmaq vacibdir.

Daha sonra məntəqə seçki komissiyası protokolunun doldurulma qaydası slaydlarla ətraflı izah edilib, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin yenilənmiş saytı istifadəyə verilib



Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin *dmstk.nakhchivan.az* adlı rəsmi saytı yenilənmiş formatda istifadəyə verilib.

Sayt ən son texnologiyalar əsasında müasir tələblərə cavab verən dizayn, proqram və informasiya təminatı baxımından yüksək səviyyədə hazırlanıb. Strukturu təkmilləşdirilmiş sayta yeni funksional bölmələr əlavə edilib.

Saytda bölmələr yeni formada çeşidlənib, video və sosial çarxların, həmçinin digər vizual materialların vahid elektron bazasının formalaşdırılması, bu materialların daha geniş izləyici auditoriyasına çatdırılması nəzərdə tutulub.

Muxtar respublikada informasiyanın bugünkü bolluğu şəraitində mövcud xəbər, foto, videomaterialların oxucuya çatdırılması üçün saytda müxtəlif forma və metodlardan istifadə edilib.

Meliorasiya və su təsərrüfatı sahəsində həyata keçirilən tədbirlərin ictimaiyyətə çatdırılması məqsədilə saytda yeni bölmələr yaradılıb.

Sayt əvvəlki ilə müqayisədə daha interaktivdir. Belə ki, o, 2 səhifə, 7 bölmə, 21 altbölmə, 20 yarımbölmədən ibarətdir.

Yenilənmiş internet saytı komitənin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin, bu sahədə olan yeniliklərin, həyata keçirilən tədbirlərin, genişmiqyaslı layihələrin daha dolğun və operativ şəkildə işıqlandırılmasına şərait yaradacaq, ictimaiyyətə çatdırılmasını təmin edəcək. Həmçinin muxtar respublikada meliorativ tədbirlərin təbliğində informasiya və təcrübə rolunu oynayacaq.

Saytın əsas məqsədi bu sahə ilə ictimaiyyəti daha yaxından tanış etmək, meliorasiya haqqında müxtəlif media orqanlarında yayımlanan araşdırma və məqalələri toplayaraq baza təşkil etməkdir.

Muxtar respublikada aqrar sahənin gündən-günə inkişaf etdiyi bir vaxtda belə bir saytın fəaliyyəti son zamanlar aktivliyi və müasir layihələri ilə gündəmə gələn komitəyə yeni imic qazandıracaq, daha da təkmilləşməsinə şərait yaradacaq.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

*18 Dekabr Beynəlxalq Miqrant Günüdür*

## Muxtar respublikada miqrasiya siyasəti uğurla reallaşdırılır



***1990-cı il dekabrın 18-də Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" Konvensiya qəbul edilmişdir. 2000-ci ildən etibarən həmin tarix "Beynəlxalq Miqrant Günü" kimi qeyd olunur.***

Miqrasiya və miqrantlar mövzusu müasir dünyada geniş müzakirələrə səbəb olan ən aktual məsələdir. Son illər baş verən müxtəlif siyasi və iqtisadi proseslər miqrasiyanın, xüsusilə sosial-iqtisadi miqrasiyanın genişlənməsinə təsirsiz ötüşməmişdir. Hazırda mövcud miqrantların böyük əksəriyyətini əməkçi miqrantlar təşkil edir ki, bu da onlarla bağlı problemlərə xüsusi diqqət yetirilməsini və bununla əlaqədar bir çox məsələlərdə dövlətlər tərəfindən vahid yanaşmanın tətbiq olunmasını zəruri edir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra miqrasiya sahəsində ardıcıl tədbirlər görülmüş, qanunvericilik təkmilləşdirilmişdir. İqtisadi inkişafın və sabitliyin təmin olunması, neft layihələrinin gerçəkləşməsi xarici investorların və əməkçi miqrantların ölkəmizə axınına səbəb olmuşdur. Ulu öndərin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu sahədə ardıcıl tədbirlər görülür. Azərbaycanın miqrasiya sahəsindəki siyasəti ölkənin sosial-iqtisadi maraqlarının qorunması ilə yanaşı, miqrantların, o cümlədən də əməkçi miqrantların həyat və fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına, onların hüquqlarının müdafiəsinə yönəldilmişdir.

Naxçıvan Muxtar Respublikasında da miqrasiya prosesləri qanunvericiliyin tələblərinə uyğun tənzimlənir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Son illər muxtar respublikada reallaşan uğurlu islahatlar nəticəsində yaşayış səviyyəsi yüksəlmiş, əlverişli coğrafi-strateji mövqeyi, mühüm ticarət qovşaqlarının üzərində yerləşməsi Naxçıvanı əcnəbilər üçün cəlbedici məkana çevirmişdir. Ona görə də miqrasiya sahəsində dövlət nəzarətinin həyata keçirilməsi, qarşıya qoyulan vəzifələrin vaxtında və düzgün yerinə yetirilməsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün müasir standartlara cavab verən yeni inzibati binanın istifadəyə verilməsi bu sahədə görülən işlərin davamıdır. Dövlət Miqrasiya Xidməti miqrasiya sahəsində qanunvericiliyin tələblərini rəhbər tutaraq muxtar respublikada insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinə xüsusi diqqət yetirir, bu sahə üzrə qarşıda duran vəzifələri həll edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş turizm sektorunun inkişafı üçün muxtar respublikada əlverişli mühit formalaşdırmaq məqsədilə sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi, sərhəd-buraxılış məntəqələrində sürətli keçidin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi istiqamətində Dövlət Miqrasiya Xidməti tərəfindən mühüm addımlar atılmışdır. Belə ki, əcnəbilərin olduğu yer üzrə qeydiyyatı sadələşdirilmiş, qeydiyyatın aparılmasına əlverişli şərait yaradılmış, elektron qaydada müraciətlər təmin edilmişdir. Həmçinin muxtar respublika ərazisində fəaliyyət göstərən mehmanxanalarla Dövlət Miqrasiya Xidməti arasında ölkəyə gələn əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınması proseduru sadələşdirilmiş formada elektron qaydada həyata keçirilir.

Muxtar respublikada insan hüquq və azadlıqlarına daim diqqətlə yanaşılır. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin istifadəyə verilməsi, bu mənada, mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq standartlara uyğun olan mərkəzdə könüllü və məcburi saxlanılan miqrantların hüquqlarının təmin edilməsi məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq hər cür şərait yaradılmışdır.

Reallıqdır ki, öz hüquq və azadlıqlarını,vəzifələrini bilməyən şəxs rahatlıqla qanunsuz miqrasiyanın qurbanına çevrilə bilər. Bu gün əcnəbilərin muxtar respublikamızda rahat, təhlükəsiz, sərbəst hərəkət etmələrinin, eləcə də qanunsuz miqranta çevrilməmələrinin əsasında həm də maarifləndirmə tədbirləri dayanır. Dövlət Miqrasiya Xidməti mütəmadi olaraq vətəndaşları məlumatlandırılması və maarifləndirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirir. Belə ki, sərhəd-buraxılış məntəqələrində yerləşdirilmiş elektron məlumat köşkləri üzərində müvəqqəti və daimi yaşamaq, olduğu yer üzrə qeydiyyataalınma, haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi və müddətinin uzadılması ilə bağlı məlumatlar Azərbaycan, rus və ingilis dillərində yazılı və səsli formada muxtar respublikaya daxil olan xarici ölkə vətəndaşlarına təqdim olunur.

Bundan başqa, Dövlət Miqrasiya Xidməti əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə "Elektron hökumət" portalı üzərindən 9 sahə üzrə xidmət göstərir. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazələrinin verilməsi və müddətinin uzadılması da bu xidmət növlərinə daxildir. Əməkçi miqrantların işəgötürülmə prosedurunu sadələşdirmək üçün xidmətin rəsmi internet səhifəsi üzərində "Elektron xidmətlər" bölməsi yerləşdirilmiş, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən iş icazələrinin və onun əsasında muxtar respublika ərazisində yaşamaq hüququ verən müvafiq icazələr üçün müraciətetmə imkanı yaradılmışdır. Eyni zamanda bu xidmət növləri üzrə dövlət rüsumlarının internet üzərindən ödənilməsi də onlayn həyata keçirilə bilir. Dövlət Miqrasiya Xidmətinin "202 – Miqrasiya Məlumat Mərkəzi"nin fəaliyyəti də miqrasiya sahəsi üzrə qanunvericilik və sənədlərin icrası ilə bağlı informasiyaları əldə etmək hüququnun təmini baxımından mühüm əhəmiyyətə malikdir.

Miqrasiya siyasətinin həyata keçirilməsində əsas məsələlərdən biri də burada yaşayan əcnəbilərin hüquq və vəzifələrinin, miqrasiya qanunvericiliyinin, həmçinin Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin öyrənilməsinin təmin edilməsidir. Bu məsələnin əhəmiyyəti nəzərə alınaraq muxtar respublikada müvəqqəti yaşayan və əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin hüquq və azadlıqları ilə bağlı, habelə muxtar respublikanın tarixi, mədəniyyəti, incəsənəti, turizm imkanları haqqında müxtəlif maarifləndirici tədbirlər və muzeylərə ekskursiyalar təşkil olunur. Eyni zamanda miqrasiya sahəsində vətəndaşlara göstərilən xidmətlərin operativliyinin təmin olunması, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin miqrasiya qanunvericiliyi sahəsində hüquqi məlumatlar əldə etməsi məqsədilə Dövlət Miqrasiya Xidmətinin rəsmi internet saytı fəaliyyət göstərir. Sayt daha rahat istifadə üçün cari ilin əvvəlində tamamilə yenilənmiş, həm funksionallıq, həm dizayn baxımından müasirləşdirilmiş və zamanın tələbinə uyğunlaşdırılmışdır. Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərən saytın daha çox əcnəbilər tərəfindən istifadəsi nəzərə alınaraq *www.migration.nmr.az* adı ilə də fəaliyyəti təmin edilmişdir.



*Dövlət Miqrasiya Xidmətinin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla icra edəcək, miqrasiya proseslərinin idarə olunması sahəsində qanunvericiliyin tələblərinə uyğun fəaliyyət göstərəcək.*

**Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi**

## Gömrük əməkdaşlarının peşəkarlıqları artırılır

*Gömrük orqanları əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi və əməyinin stimullaşdırılması istiqamətində tədbirlər davam etdirilir.*



Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən növbəti ixtisasartırma kurslarına cəlb edilmiş gömrük əməkdaşları üçün yoxlama imtahanları keçirilib. İmtahanlarda komitənin müvafiq şöbələri tərəfindən əməkdaşların gömrük sisteminin vahid avtomatlaşdırılmış idarəetmə sistemindən, texniki nəzarət vasitələrindən istifadə qaydaları, hüquqpozma faktlarının ilkin sənədləşməsi, şübhəli şəxslərin müəyyən olunması və narkotiklər barədə bilikləri, gömrük orqanlarında nəqliyyat vasitələrinin yoxlanılması qaydalarını hansı səviyyədə mənimsədikləri müəyyənləşdirilib.

İmtahanlardan uğurla çıxmış əməkdaşlara sertifikatların təqdim olunması məqsədilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli dövlətimizin yüksək diqqət və qayğısı ilə gömrük orqanlarının fəaliyyəti üçün hərtərəfli şəraitin yaradıldığını vurğulayıb. Qeyd olunub ki, gömrük xidmətinin təkmilləşdirilməsi və kadr potensialının gücləndirilməsi qarşıda duran əsas vəzifələrdəndir. Buna görə də gömrükçülərin bilik və bacarıqları ilə yanaşı, peşə vərdişləri də günün tələblərinə cavab verməli, hər bir gömrük əməkdaşı dövrün çağırışlarına uyğun şəkildə formalaşmalı, xidməti vəzifələr yüksək peşəkarlıqla icra olunmalıdır. Komitə sədri vurğulayıb ki, ixtisasartırma təlimlərinin məqsədi gömrük orqanı əməkdaşlarının praktik bacarıqlarının artırılmasından, xidmətin keyfiyyətinin yüksəldilməsindən, işə daha məsuliyyətli yanaşmanın təmin edilməsindən ibarətdir.

Qeyd edək ki, 2019-cu il ərzində, ümumilikdə, 83 gömrük əməkdaşı ixtisasartırma təlimlərinə cəlb olunub, imtahanlarda uğur qazanmış əməkdaşlara sertifikatlar verilib. Mərhələli şəkildə bütün gömrük əməkdaşlarının belə təlimlərə cəlb edilməsi, əvvəlcədən təsdiq olunmuş proqram üzrə tədrisin aparılması və qiymətləndirilməsi nəzərdə tutulub.

**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti**

## Aqrar sahədə maarifləndirmə tədbirləri davam etdirilir



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən noyabr ayında dövlət proqramlarının icrası diqqətdə saxlanılmış, payızlıq taxıl əkinlərinin optimal müddətdə başa çatdırılması, əkindən sonra aqrotexniki tədbirlərin görülməsi istiqamətində torpaq mülkiyyətçiləri ilə maarifləndirici söhbətlər aparılmışdır. Meyvə və üzüm bağlarında payız mövsümündə görüləcək tədbirlərlə bağlı seminar-müşavirələr keçirilmiş, torpaq mülkiyyətçilərinə yeni meyvə bağları və üzümlüklərin salınması qaydaları, sahibkar və ailə təsərrüfatı başçılarına meyvə-tərəvəz, əsasən, tərxun bitkisinin yetişdirilməsi üçün təbii şəkildə qızdırılması mümkün olan anqartipli istilik təsərrüfatlarının yaradılmasına dair məsləhətlər verilmişdir.

"Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsi tərəfindən Şahbuz və Kəngərli rayonlarının kənd təsərrüfatına yararlı torpaq sahələrindən nümunələr götürülmüş, tərkibindəki qida maddələrinin miqdarını müəyyənləşdirmək üçün kimyəvi analizlər aparılmışdır. Analizlərin nəticələrinə uyğun olaraq qida maddələri ilə təminolunma kartoqramları hazırlanaraq Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinə göndərilmişdir. Həmçinin ailə təsərrüfatçıları, fermerlər tərəfindən istixana və meyvə bağlarından xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə gətirilən nümunələrə baxılmış, onlara lazımi mübarizə tədbirlərinin aparılması istiqamətində tövsiyələr verilmişdir.

Heyvandarlıq təsərrüfatları sahibkarlarının iştirakı ilə müşavirələr keçirilmiş, heyvandarlıq təsərrüfatlarında qışlamaya hazırlıq, süni mayalanmanın üstünlükləri, döl kampaniyasının mütəşəkkil aparılması və heyvanlara zoobaytar qaydalara uyğun qulluq edilməsi ilə bağlı görüşlər təşkil olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti**

## Daşınmaz əmlakın qeydiyyatı sahəsində yeniliklər tətbiq olunur

*Muxtar respublikada torpaqlardan səmərəli istifadə sahəsində qarşıya qoyulmuş vəzifələrin icrası, torpaqların elektron uçotunun aparılması, vətəndaşların daşınmaz əmlak üzərindəki hüquqlarının dövlət reyestrində qeydiyyata alınması zamanı operativliyin təmin edilməsi 2019-cu ilin noyabr ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqətdə saxlanılmışdır.*

Ötən ay 12 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar qeydiyyata alınmışdır. Torpaqların elektron uçotunun aparılması məqsədilə Şahbuz rayonunun Şahbuzkənd, Külüs və Nursu kəndlərində, Sədərək rayonunun Heydərabad qəsəbəsində 1782 daşınmaz əmlak obyekti plana alınmışdır. Həmçinin Şahbuz şəhər və Badamlı qəsəbə bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmışdır. Sədərək rayonunda "Torpaqların elektron uçotunun aparılması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr" mövzusunda müşavirə keçirilmişdir. Babək rayonunun Sirab kəndində torpaqlardan səmərəli istifadə və onların mühafizəsinə dair monitorinqlər davam etdirilmişdir.

Hesabat ayında daşınmaz əmlakın elektron qeydiyyatı sisteminin proqram təminatı yenilənmiş və daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışın verilməsi imkanı yaradılmışdır. Komitənin rəsmi internet saytının elektron xidmətlər bölməsinə "Daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışın verilməsi" və "Daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışın yoxlanılması" xidmətləri əlavə edilmişdir.

Noyabr ayında 521 daşınmaz əmlak obyekti qeydiyyata alınmış, 440 texniki sənəd hazırlanmış, yeni yaranmış 22 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 78 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 48 vətəndaşın müraciətinə baxılmış, 53 vətəndaşa elektron xidmətlər göstərilmişdir.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

# Saz-söz sənətimizin 80 yaşlı sərrafı

*Xalqımızın qədim tarixi ilə bağlı olan, əsrlər keçdikcə cilalanaraq müasirliyə qovuşan aşıq sənəti folklorumuzun zənginliyinin təsdiqidir. Dərin məzmunlu, zəngin sənət növü kimi aşıq yaradıcılığı Naxçıvanda qədimdən formalaşıb, inkişaf edib. Elə buna görə də diyarımızda folklorun aparıcı qolunu təşkil edən ozan-aşıq yaradıcılığının görkəmli nümayəndələri olub. Naxçıvan aşıq mühiti keçən əsrlər ərzində söz və saz yaradıcılığı sahəsində özünəməxsusluq qazanaraq aşıq sənətinə qiymətli töhfələr verib. Bu yazıda sizə zəmanəsinin məşhur aşıqlarından olan, Azərbaycan şairi, çağdaş Naxçıvan aşıq məktəbinin banisi, bu yaxınlarda anadan olmasının 80 ili tamam olacaq Sərraf Qasım haqqında danışacağıq. Şahbuz aşıq mühitinin bu görkəmli nümayəndəsi uzun illər ərzində saz həvəskarlarına aşıq-saz sənətinin sirlərini öyrədib. Bu gün də Naxçıvan aşıq mühitində fəaliyyət göstərən söz ustadlarının bir çoxu onun yetirmələridir. Onlar muxtar respublikamızda keçirilən xalq mərasimlərində, dövlət tədbirlərində, eləcə də xaricdə qədim diyarımızın folklor-musiqi mədəniyyətini layiqincə təmsil edirlər.*



Aşıq sənətinin bütün sirlərinə vaqif olan və öz yaradıcılığı ilə Azərbaycan aşıq ədəbiyyatının inkişafına əvəzsiz töhfələr verən Sərraf Qasımın həyatı və ədəbi irsi haqqında AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, professor, Əməkdar elm xadimi Hüseyn Həşimli ilə həmsöhbət olduq.

***– Hüseyn müəllim, əvvəlcə istərdim oxucularımıza öz dövrünün tanınan sənətkarı Sərraf Qasımın həyatı haqqında qısa məlumat verəsiniz.***

– Qədim və zəngin tarixə malik Naxçıvan ədəbi mühitinin, saz-söz sənətinin inkişafında ulu diyarımızın özünəməxsus mövqeyi vardır. Bu sahədəki çoxəsrlik ənənələrin yeni mərhələdə davamı və inkişafı baxımından unudulmaz el sənətkarı Sərraf Qasımın yaradıcılığı böyük maraq doğurur.

Sərraf Qasım (Rüstəmov Qasım Əyyub oğlu) 31 dekabr 1939-cu ildə Şahbuz rayonunun Aşağı Qışlaq kəndində dünyaya göz açıb. O, gənclik illərindən aşıq sənətinin sirlərini öyrənib, həm mahir saz ifaçısı, həm də aşıq poeziyasının ən müxtəlif janrlarında dəyərli əsərlər müəllifi kimi şöhrətlənib. 2018-ci il 9 fevral tarixdə dünyasını dəyişən istedadlı söz ustadı özündən sonra zəngin ədəbi irs qoyub. Sərraf Qasım böyük yaradıcılıq yolu keçməklə yanaşı, saz-söz sənətinin sirlərini yeni nəsillərə həvəslə öyrədən bir müəllim kimi də tanınıb. Vaxtilə ondan dərs almış bir sıra sənətkarlar hazırda uğurla fəaliyyət göstərirlər.

***– Azərbaycan aşıq sənəti tarixində və poeziyasında öz dövründə bir çox ilklərə imza atmış Sərraf Qasımın yaradıcılığı barədə nə deyə bilərsiniz?***

– Sərraf Qasımın bayatı, qoşma, cığalı qoşma, gəraylı, təcnis, cığalı təcnis, müxəmməs və digər janrlarda yazdığı şeirlərin əksəriyyəti həm poetik mükəmməlliyi, həm də mövzu, ideya dolğunluğu ilə seçilir. Ayrıca vurğulamağa ehtiyac var ki, onun yaradıcılığında bir sıra dəyərli nümunələrini gördüyümüz elə şeir formaları var ki, bu cür poetik örnəklərə, ümumən, aşıq ədəbiyyatımızda az-az təsadüf olunur. Bu baxımdan Sərraf Qasımın cığalı gəraylı, cığalı müxəmməs kimi poetik formalarda yaratdığı şeirlər çağdaş aşıq poeziyasının nadir nümunələrindən sayıla bilər.

***– Sərraf Qasımın yaradıcılığının bir hissəsini təşkil edən şeirləri həm janr, həm də mövzu baxımından çoxcəhətlidir.***

– El sənətkarının əsərlərində əxlaqi-didaktik qənaətlərin, nəsihətamiz fikirlərin bədii təcəssümü geniş yer tutur. Bu baxımdan onun Vətən məhəbbətini dolğun deyimlər vasitəsilə əks etdirən çoxsaylı şeirləri ilk baxışdan diqqəti çəkir. Onların birində doğma yurda sevgisini müəllif belə poetikləşdirib:

*Qürbət düyünündən, qürbət toyundan*
*Vətəndə bayatı, ağı yaxşıdır.*
*Qürbət çəmənindən, laləzarından*
*Vətənin bir quru bağı yaxşıdır.*

Bəllidir ki, çoxəsrlik aşıq poeziyasında bir sıra sənətkarlar həyat sınaqlarından və müşahidələrindən yoğurulmuş müdrik qənaətlərini ustadnamələr, öyüdlər şəklində ümumiləşdiriblər. Sərraf Qasımın yaradıcılığında da belə nümunələr çoxdur. Onun didaktik şeirləri aydın və dolğun qayəsi ilə səciyyələnir, ümumən, gəncliyə faydalı nəsihətlər kimi dəyər qazanır:

*Atanın sözləri, bala, öyüdün,*
*Ananın sözləri qüvvətin olsun.*
*Əslini itirmə, nəslini danma,*
*Ucal kökün üstə, qüdrətin olsun.*

***– Bəs aşığın şeirlərində ideya-estetik məziyyətlərin rəngarəng bədii üsullarla təsvirini necə səciyyələndirmək olar?***

– El sənətkarının yaradıcılığındakı yüksək mənəvi dəyərlərin pərvəriş tapmasını, düşüncələrin ədəbi təzahürünü, ideya-estetik məziyyətlərin rəngarəngliyini aşağıdakı misralardan da aydın görmək olar:

*Olmamışam var aşiqi,*
*Olmuşam ilqar aşiqi,*
*Məclislərin yaraşığı,*
*Sazlı, sözlü, şənliyəm mən.*

*Nə qədər ki, ölməmişəm,*
*Xalqımı sevməkdi peşəm.*
*Sərrafam, təəssübkeşəm,*
*Sənliyəm mən, mənliyəm mən.*

***– Ustad aşığın doğma Vətənimiz Azərbaycanın, eləcə də qədim diyarımızın xəritə üzrə bütün coğrafi bölgələrinin vəsfi barədə yazdığı şeirlər müstəqil Azərbaycanın, eyni zamanda Naxçıvanın ilk poetik xəritəsini əyani olaraq göz önündə canlandırır.***

– Sizin də qeyd etdiyiniz kimi, Azərbaycanımıza, onun qədim və həmişəcavan diyarı Naxçıvanımıza, ümumiyyətlə, respublikamızın müxtəlif bölgələrinin tarixi keçmişinə, əsrarəngiz təbii gözəlliklərinə, çağdaş tərəqqisinə həsr etdiyi şeirləri müəllifin vətənpərvərlik duyğularının bədii təcəssümü kimi diqqəti çəkir. Aşağıdakı misralar ulu Naxçıvanımıza, onun iftixar doğuran inkişafına dərin məhəbbətdən yaranıb:

*Bağbanın kamildir, doldun barlara,*
*Layiq oldun böyük iftixarlara,*
*Köksündən boy atan vəfadarlara*
*Sevgili canansan, canan, Naxçıvan!*
*Şərqin gözü, Nəqşi-cahan, Naxçıvan!*

***– İstərdim ki, görkəmli söz ustasının poemaları haqqında da oxucularımıza məlumat verəsiniz.***

– Dəyərli şeirlərlə yanaşı, poema sahəsində də öz bədii sözünü deyən sənətkarın belə əsərlərində də xalq-aşıq şeiri ənənələri önəmli yer tutur. Ümummilli liderimiz Heydər Əliyevə həsr etdiyi poemada və şeirlərdə ulu öndərin Azərbaycanın xilaskarı və qurucusu kimi həyata keçirdiyi möhtəşəm tədbirlər, dahi rəhbərə tükənməz xalq məhəbbəti özünün bədii ifadəsini tapıb.

Müəllifin aşağıdakı misraları da bütün zamanların ən böyük Azərbaycanlısı olan ulu öndər şəxsiyyətinin qüdrət və əzəmətini bir daha diqqətə çatdırır:

*Bunu idrak, duyğu deyir:*
*Heydər-Vətən, Vətən-Heydər!*

*Xalqın məded, kömək yeri*
*Sənsən dada yetən, Heydər.*
*Heydər-Vətən, Vətən-Heydər!*

***– Zəngin və məhsuldar sənət yolu keçmiş el sənətkarının ədəbi fəaliyyətinin bir qolu da təbii ki, yaratdığı dastanlardır.***

– Sizin də qeyd etdiyiniz kimi, tanınmış sənətkar dastan yaradıcılığı ilə də məşğul olub. Həcmcə o qədər də böyük olmayan, lirik-epik səciyyəli belə nümunələr çağdaş dastançılıq ənənəsinə diqqətəlayiq töhfələr sayılmaqla yanaşı, aşığın yaradıcılıq ənənələrini və əlaqələrini öyrənmək baxımından da maraq doğurur.

***– Bəs aşığın poetik irsinin nəşri barədə nə deyə bilərsiniz?***

– Sərraf Qasımın əsərləri bir sıra mətbuat orqanlarında, almanax və antologiyalarda işıq üzü görüb, həmçinin müxtəlif vaxtlarda nəşr olunmuş "Gərəkdi Heydərli, İlhamlı sözlər", "Bu, Sərraf Qasımın söz qalasıdır", "Bir qartal ol, millətim, zirvələrə çat" və digər kitablarında toplanıb.

***– Hüseyn müəllim, Sərraf Qasım haqqında dəyərli fikirlər söylədiniz. Bir ədəbiyyatşünas kimi aşığın poetik yaradıcılığının ümumiləşdirilmiş elmi-ədəbi təhlilini necə verərdiniz?***

– Unudulmaz və istedadlı el sənətkarı, söz sərrafı Sərraf Qasım səksən ilə yaxın ömür sürdü. Əlinə qələm, sinəsinə saz aldığı ilk vaxtlardan etibarən həyatının sonunadək xalqa, Vətənə məhəbbət duyğusu ilə yazdı, yaratdı, aşıq poeziyasının inkişafına ləyaqətlə xidmət göstərdi. Və bütün bunlara görə də sevildi, dəyərləndirildi, unudulmadı, mənəvi ölümsüzlük qazandı.

Bu yaxınlarda saz-söz sənətinin vurğunu Sərraf Qasımın 80 yaşı tamam olacaq. O, Naxçıvanda milli aşıq sənətinin inkişafına misilsiz töhfələr verdiyinə görə tədqiqatçı alimlər tərəfindən çağdaş "Naxçıvan aşıq məktəbinin banisi" adlandırılıb. Şairlər içərisində ən gənc yaşlarında alimlik dərəcəsinə layiq görülən, ən zəngin dastan, cığalı şeirlər və dini yaradıcılığa malik şair kimi tanınıb. Gənc yaşlarından etibarən dahi Azərbaycan aşıqları ilə bədahətən deyişmə istedadına malik şairlərdən olub. Eyni zamanda həm klassik, həm də müasir poeziya janrlarında heyrətamiz əsərlər yaradan bir şair olduğuna görə Zəlimxan Yaqub və Həsən Mirzə kimi şair və yazıçılar tərəfindən öz dövründə "Azərbaycanın ən peşəkar və təkrarsız şair oğlu" adlandırılıb. "Azərbaycan xəritəsi" və "Naxçıvan xəritəsi" adlı poemaları ilə müstəqil Azərbaycanın ilk poetik xəritəsini yaradan görkəmli şair Azərbaycan poeziya tarixində yaranan ilk səsli şeir kitablarından birinin müəllifi olub.

***– Maraqlı müsahibə üçün çox sağ olun. Biz də Naxçıvan aşıq məktəbinin layiqli nümayəndəsi, ömrünün yarıdan çoxunu saza-sözə həsr etmiş, Vətənini və doğma diyarı Naxçıvanı fəxr və qürurla öz əsərlərində yaşadan Sərraf Qasımın yubiley yaşı ərəfəsində ehtiramla anırıq.***

**Güntac ŞAHMƏMMƏDLİ**

## Ölkəmizin enerji diplomatiyası uğurları ilə seçilir



*"Naxçıvan" Universitetində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin təşkilatçılığı ilə "Azərbaycan Respublikasının enerji diplomatiyası" mövzusunda elmi-praktik konfrans keçirilib.*

Konfransı giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açaraq ölkəmizdə enerji sahəsində əldə olunan uğurlardan və diplomatiya sahəsində qazanılan nailiyyətlərdən danışıb.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Vüsal Ələkbərli bildirib ki, müasir dövrdə beynəlxalq aləmdə ən aktual məsələlərdən biri enerjidaşıyıcıları uğrunda dünya ölkələrinin rəqabətidir. Bu rəqabətdə üstünlük qazanmaq, təbii ki, dünyada müəyyən dərəcədə söz sahibi olmağa, həmçinin dövlətlərin öz iqtisadi, siyasi, eləcə də hərbi gücünün artırılmasına təsir göstərir. Azərbaycanın yeni enerji strategiyasının memarı ümummilli lider Heydər Əliyevin ötən əsrin 90-cı illərində müəllifi olduğu iki siyasi qərar ölkəmizin neft-qaz siyasətinin formalaşmasında həlledici rol oynayıb, eyni zamanda respublikamızın Avropanın enerji təhlükəsizliyinə töhfə verməyə hazır olduğunu nümayiş etdirib. 1996-cı il iyunun 6-da regionun, ümumilikdə, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan "Şahdəniz" qaz yatağının işlənməsinə dair müqavilənin imzalanması ilə bu proses dönməz xarakter alıb.

Sonra Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin əməkdaşlarından Pərviz Budaqovun "Azərbaycan Respubikasının enerji siyasəti", Ülvi Məmmədlinin isə "Cənubi Qaz Dəhlizi və Azərbaycana tranzit potensialı" mövzularında çıxışları dinlənilib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Seyfur HACIMURADOV**

## "XX əsr Naxçıvan ədəbi mühiti" mövzusunda elmi konfrans



*Naxçıvan Dövlət Universitetində "XX əsr Naxçıvan ədəbi mühiti" mövzusunda elmi konfrans keçirilib. Konfransı giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev XX əsrin siyasi, tarixi, ədəbi mənzərəsinə nəzər salıb. Çox mürəkkəb və ziddiyyətli proseslərin fonunda ədəbiyyatın inkişafından söhbət açılıb, çağdaş ədəbiyyatşünaslığımızda Naxçıvan ədəbi mühitinin öyrənilməsi istiqamətində də xeyli uğurlar əldə edildiyi vurğulanıb. Rektor belə konfransların keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.*

"Naxçıvanın şeir mühiti (müstəqillik dövrü)" mövzusunda çıxışında AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru Vaqif Yusifli qeyd edib ki, naxçıvanlı şair və yazıçıların əsərlərində Naxçıvan mövzusu əsas yer tutur. Diqqətə çatdırılıb ki, Vətənə, doğma yurda bağlılıq, muxtar respublikada gedən quruculuq prosesləri, məqsədyönlü siyasət ədəbiyyat adamlarını daim düşündürən zəruri məsələlərdir. Çıxışda İslam Səfərli, Elman Həbib, Vaqif Məmmədov, Adil Qasımlı və digər qələm sahibləri ilə bərabər, gənc yazarların da fəaliyyətinə nəzər salınıb.

Unudulmuş tərcüməçi Ələkbər Naxçıvanlı haqqında danışan AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Hüseyn Həşimli bədii, publisistik və tərcüməçilik fəaliyyəti ilə XX əsr ədəbi prosesində özünəməxsus yer tutan, Naxçıvan ədəbi mühitinin yetirməsi olan Ələkbər Qərib (Naxçıvanlı) haqqında geniş məlumat verib.

Jurnalistika və kitabxanaçılıq kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru İman Cəfərov "XX əsr Naxçıvan ədəbi mühiti və "Molla Nəsrəddin" jurnalı" adlı çıxışında qeyd edib ki, jurnalda Məmməd Səid Ordubadi, Əziz Şərif, Qurbanəli Şərifzadə, Məhəmmədəli Sidqi, Hüseyn Cavid və digər naxçıvanlı qələm sahibləri də çıxış ediblər.

Konfrans bölmə iclasları ilə öz işini davam etdirib.

**Səadət ƏLİYEVA**

## Xalq Teatrının yeni tamaşası

*Dünən Babək Rayon Xalq Teatrı rayon mədəniyyət sarayında görkəmli dramaturq, nasir, maarif xadimi Süleyman Sani Axundovun ilk yaradıcılıq əsəri olan "Tamahkar" komediyası əsasında hazırladığı tamaşanı rayon sakinlərinə təqdim edib.*



Qeyd edək ki, Babək Rayon Xalq Teatrı 2009-cu ildə yaradılsa da, muxtar respublikanın tanınmış kollektivlərindəndir. Bu il teatrın yaradılmasının 10 illiyi qeyd edilib. Xalq teatrının müxtəlif illərdə hazırladığı tamaşalar ictimaiyyət tərəfindən maraqla qarşılanıb.

Görkəmli dramaturq Süleyman Sani Axundovun ilk yaradıcılıq əsəri olan "Tamahkar" komediyası bütün dövrlər üçün aktual olan tamahkarlıq və xəsislikdir. Əsərin baş qəhrəmanı Hacı Murad pula görə hər cür riyakarlığa hazırdır. Teatr kollektivinin bu tamaşanı səhnələşdirməkdə məqsədi həla də rast gəlinən belə insanları islah etməkdir.

Tamaşanın quruluşçu rejissoru Yusif Əliyev, rejissoru Azərbaycan Respublikasının Əməkdar artisti Vidadi Rəcəbli, musiqi tərtibatçısı isə Fətəli Axundzadədir.

Tamaşa rayon ictimaiyyəti tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Həkim məsləhəti*

# Qış fəslində xəstəliklərdən necə qorunaq

*Havaların kəskin soyuması özü ilə bərabər bəzi mövsümi xəstəlikləri də gətirir. Bu zaman xroniki xəstəliklər daha da kəskinləşməyə başlayır. Soyuq hava şəraiti angina, bronxial-astma və digər xəstəliklərin yayılmasına münbit şərait yaradır. Bəzən bir çoxumuz yaranan xəstəliklərə etinasız yanaşırıq. Amma unutmayaq ki, bu xəstəliklər insanların normal əmək fəaliyyətinə mane olan əsas amillər sırasında birinci yerdə dayanır.*

*Payızın son günlərində havaların soyuması immuniteti zəif olan orqanizmlər üçün daha təhlükəli hesab edilir. Ümumiyyətlə, fəsil dəyişkənliyinə hər orqanizm fərqli reaksiya verir. Əgər insan tam sağlamdırsa, bunun ona heç bir təsiri olmur. Amma sağlamlığında problem yaşanan, immun sistemi zəif olanlar tez bir zamanda bu dəyişkənliyə reaksiya verirlər. Bəs soyuq qış aylarında xəstəliklərdən necə qorunmaq olar?*



Bu barədə həmsöhbət olduğumuz Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim-terapevti Ramidə Bağırova bildirdi ki, qış aylarında sağlamlıqla bağlı problemin yaranmaması üçün öncə immun sistemini gücləndirməyə çalışmaq lazımdır. Çünki soyuq havalarda immun sistemi zəifləyir. Belə bir şəraitdə hava-damcı yolu ilə hər kəs viruslara yoluxa bilər.

Həkimin sözlərinə görə, hər bir insan xroniki xəstəliklər barədə məlumatlı olmalıdır. Bu, qış aylarında daha ehtiyatlı davranmaq üçün lazımdır. İnsan var ki, soyuq havada isti evdən küçəyə çıxan kimi öskürməyə başlayır, bəzən yuxarı tənəffüs yollarının iltihabi prosesləri sürətlənir, mədə-bağırsaq sistemi xəstəlikləri baş qaldırır.

Qış aylarında daha çox yayılan xəstəliklərdən biri də qripdir. Qrip daha əvvəllər də mövcud olmasına baxmayaraq, əslində, 1918-ci ildə baş verən böyük epidemiya ilə gündəmə gəlmiş bir xəstəlikdir. “İspan qripi”ndən 1918-ci ildə, təxminən, 20 milyon insan ölüb. Sonrakı illərdə də epidemiyalar yayılıb. 1957-1985-ci illərdə ortaya çıxan 16 epidemiyanın hər birində ABŞ-da 10-40 min arasında insan vəfat edib. Müasir dövrümüzdə belə bir təhlükə olmasa da, “quş qripi”, “donuz qripi” kimi viruslar dünya ölkələrinin iqtisadiyyatına milyonlarla dollar ziyan vurub, yüzlərlə insanın ölümünə səbəb olub.

Həkim deyir ki, qrip yüksək hərarət, əzələ, oynaq, baş, boğaz ağrıları, iştahasızlıq, gözlərdə qızartı, quru öskürək və halsızlıqla müşahidə edilən yuxarı tənəffüs yolları infeksiyasıdır. Bəzən, xüsusilə uşaqlarda ürəkbulanması, qusma və ishalla müşahidə edilir. Xəstəliyin ömrü böyüklərdə 3-5, uşaqlarda 7 gündək olur. Qripə yoluxan insan 5-7 gün ərzində sağalsa da, bəzi hallarda bu, qulaq və ağciyər infeksiyalarına yol aça bilər. Buna görə də sonradan orqanizmdə müxtəlif problemlərin yaranmasının qarşısını almaq üçün əvvəlcədən profilaktik tədbirlər görmək vacibdir. Əgər orqanizmdə qripdən başqa digər xəstəlik də varsa, bu zaman həmin xəstəliyin kəskinləşməsi baş verə bilər. Ona görə də qripə bütün “xəstəliklərin açarı” deyirlər. Həmin xəstəliyin yayılması, adətən, payızın ilk aylarında başlayır, noyabr, dekabr aylarında artır. Bəzən aprel və may aylarınadək davam edir.

Onu da vurğulayaq ki, qrip xəstəliyi bütün mövsümlərdə yayıla bilər. Amma qış aylarında geniş yayılmasının səbəbi insanların qapalı məkanlarda daha çox olmasıdır. İçəridəki quru hava virusların uzun müddət yaşamasına səbəb olan amillərdəndir. Qripə yoluxan adamın istifadə etdiyi qapı, telefon dəstəkləri də infeksiya mənbəyi ola bilər. Hətta təyyarə səfərləri ilə virus bir ölkədən digərinə asanlıqla ötürülməkdədir.

Həkim onu da bildirdi ki, qripdən qorunmaq üçün insanlar mütləq A, C və E vitaminləri, minerallarla zəngin olan qidaları daim qəbul etməlidirlər. Bu baxımdan balıq, qırmızı ət, süd, qatıq, kök, düyü, şüyüd, cəfəri, brokoli, ispanaq, kök kimi qidalar A vitamini ilə, yaşıl bibər, sitrus bitkiləri, soğan, kərəviz, kivi C vitamini ilə zəngindir. Unutmayaq ki, C vitamini müqaviməti artırır, immuniteti gücləndirir və orqanizmi xəstəliklərdən qoruyur. Bitki mənşəli yağlar, tərəvəzlər, yumurta kimi qidalarda isə antioksidan xüsusiyyətlərə malik olan E vitamini var. E vitamini də immunitet sistemini gücləndirir. Turp, göbələk, sarımsaq kimi bitkilərdə, həmçinin balıq və digər dəniz məhsullarında da müqaviməti artıran selenium var. Ət, pendir, yumurta, quru paxlalılar, kəpəkli taxıl məhsulları orqanizmə faydalı olan sinklə zəngindir. Düzgün qidalanmaq üçün vitaminlərlə zəngin olan ərzaqların nizamlı şəkildə qəbul edilməsi çox əhəmiyyətlidir.

Orqanizmin zülal, yağ, şəkər, vitamin ehtiyacı yetərincə təmin olunmazsa, bədənin müqaviməti aşağı düşər və tənəffüs orqanları virusların təsiri ilə zədələnə bilər. Xüsusilə qida dəyəri aşağı olan, yağlı yeməklərin (hamburger, dönər, cızbız, hazır şorbalar) həddindən artıq qəbul edilməsi qrip kimi infeksion xəstəliklərə yoluxma riskini artırır.

Müsahibimin sözlərinə görə, insanlar belə xəstəliklərdən sadə bir yolla özlərini qoruya bilərlər. Küçəyə çıxmazdan əvvəl adi sabundan kiçik bir hissə kəsib qısa müddətə buruna qoymaq faydalıdır. Çünki burun sabundan qıcıqlanır və qripə qarşı təbii dərman olan interferon ifraz etməyə başlayır.

Unutmaq olmaz ki, istənilən xəstəlik zamanı antibiotiklər ancaq həkimin göstərişi ilə qəbul edilə bilər. Yetərincə su içmək tənəffüs orqanları hüceyrələrinin virusa bulaşan damlacıqlara qarşı müqavimət göstərməsini təmin edir. Buna görə də qış fəslində də hər gün 10-12 stəkan maye qəbul edilməlidir.

Nizamlı şəkildə idman etmək də müqavimətin artırılması üçün çox əhəmiyyətlidir. Hər səhər soyuq duş, xüsusilə burun-qırtlaq hissəsində qan dövranını nizamlayır və viruslara qarşı yaxşı “müdafiə səddi” yaradır. Bu üsula vərdiş edənlər xəstəliklərdən rahatlıqla qorunurlar.

Ramidə həkim onu da bildirir ki, maraqlı görünsə də, qripə yoluxmamaq üçün öncə stresdən uzaq olmaq vacibdir. Çünki stress müqaviməti azaldaraq xəstəliklərə yol açan əhəmiyyətli amillərdən biridir. Qrip xəstəliyinə tutulmuş adamın əşyalarından istifadə etmək xəstəliyə yoluxmaq riskini artırır. Bu səbəbdən təmizliyə fikir vermək, şəxsi gigiyenanı qorumaq əhəmiyyətlidir. Yuxu rejiminə də diqqət etmək lazımdır. İnsan yuxusuz qalanda bədən hüceyrələri zəifləyir və onların virusla mübarizə qabiliyyəti yarıbayarı azalır.

Qrip xəstəsinin olduğu otağın normal temperaturda saxlanılması və tez-tez havalandırılması, onların açıq havada olması vacibdir. Xüsusilə uşaqları soyuq günlərdə belə, açıq havadan məhrum etmək olmaz. Əksinə, onlar təmiz havada çox gəzməlidirlər. Bu zaman qalın paltarları üstüstə geyindirmək, uşağın ağzını müxtəlif şərflərlə sıx bağlamaq düzgün deyil. Bu, uşaqların hərəkət etməsinə, müxtəlif oyunlar oynamasına maneçilik yarada bilər.

Qripdən hamı qorunmalıdır. Amma elə insanlar vardır ki, buna, xüsusilə diqqət yetirməlidirlər. 65 yaşdan yuxarı şəxslər, astma və xroniki ağciyər, şəkər, ürək və ya böyrək xəstələri, orqan nəql edilmiş, immunçatışmazlığı olan şəxslər, hamilə qadınlar, körpələr qripdən daha çox qorunmalıdırlar. Yaddan çıxarmaq lazım deyil ki, orqanizmin sağlam olması hər bir insanın öz əlindədir.

**Ramiyyə ƏKBƏROVA**

*Dünən “Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 10 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrasını təmin etmək üçün “Ordubad Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsində çalışan tibb işçiləri üçün maarifləndirici tədbir keçirilib.*

## İcbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir keçirilib

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Samrat Gəncəyeva açaraq Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirədə qarşıya qoyulan tapşırıqların və müvafiq sərəncamın icrası istiqamətində görülən işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov çıxışında bildirib ki, müvafiq fərman və sərəncamlara əsasən Sədərək, Şərur, Kəngərli, Şahbuz rayonlarında icbari tibbi sığorta tətbiq olunur. Qeyd edilib ki, agentlik sığortaolunanlara baza zərfinə əsasən xidmət göstərir. Baza zərfinə 18 ilkin səhiyyə, 5 təcili və təxirəsalınmaz, 471 ambulator, 285 laborator müayinə, 23 fizioterapevtik, 600 stasionar və 123 həyativacib olmaqla, ümumilikdə, 1525 tibbi xidmət daxil edilib. Agentliyin qeydiyyat məntəqələri yaradılıb və fəaliyyəti təmin olunub.

Vurğulanıb ki, Ordubad rayonunda da icbari tibbi sığortanın tətbiqi məqsədilə görülən işlər vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin daha da artırılmasını, səhiyyə sisteminin dayanıqlı inkişafını, əhalinin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsini və maddi rifah halının yaxşılaşmasını təmin edəcəkdir.

Sonra agentliyin İcbari tibbi sığorta işinin təşkili şöbəsinin müdiri Vüsal Məmmədov “İcbari tibbi sığorta nədir?”, Səhiyyə və sosial iqtisadi təhlil şöbəsinin baş məsləhətçisi Nazəni Rüstəmli “İcbari tibbi sığortada tibbi xidmətin təşkili” mövzularında çıxış ediblər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi**

## Güləşçilərimiz beynəlxalq turnirdə 4 medal qazanıblar



*Bakı şəhərindəki Xırdalan “Zirvə” İdman Kompleksində 2005-2009-cu illər təvəllüdlü azyaşlılar arasında sərbəst güləş üzrə I Beynəlxalq Zirvə turniri keçirilib.*

Turnirdə 4 ölkədən 100-ə yaxın idmançı gücünü sınayıb. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının 4 idmançısı da turnirdə iştirak edib və qaliblər sırasına adlarını yazdırıblar.

Belə ki, 35 kiloqram çəki dərəcəsində Nicat Ocaqquliyev və 38 kiloqram çəki dərəcəsində Ramil İsmayılov gümüş medal qazanıblar. Digər iki idmançımız 44 kiloqram çəki dərəcəsində Elmir Hacıyev və 75 kiloqram çəki dərəcəsində Əli Səfərov beynəlxalq turniri üçüncü pillədə başa vurublar.

Sonda idmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

## Rayon birinciliyinə yekun vurulub



*31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə keçirilən kikboksinq üzrə yeniyetmələr arasında Şərur rayon birinciliyinə yekun vurulub.*

Şərur Rayon Gənclər və İdman İdarəsi və rayon Uşaq-gənclər idman məktəbinin birgə təşkilatçılığı ilə keçirilən birincilikdə idmançılar 9 çəki dərəcəsində rinqə çıxıblar.

Yekun nəticəyə əsasən Uğur Məmmədli (25 kiloqram), Zaman Hüseynov (33 kiloqram), Sinan Kazımov (36 kiloqram), Hüseyn Həsənov (39 kiloqram), Əsgər Hacıyev (42 kiloqram), Sinan Süleymanov (54 kiloqram), Yarəddin Cəfərov (57 kiloqram), Ülvi Babayev (60 kiloqram) və Ayhat İmranlı (63,5 kiloqram) bütün rəqiblərini üstələyərək qalib adını qazanıblar.

Qaliblər təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə təltif olunublar.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## Elan

“Naxçıvan” Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2019-cu il tarixli, 737 nömrəli Sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2019-cu il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planına əsasən 2019-cu il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya qəbul elan edir.

**Doktoranturaya ödənişli əsaslarla**

1. Azərbaycan dili – 1 yer
2. Etnopedaqogika – 1 yer

**Dissertanturaya ödənişli əsaslarla**

1. Vətən tarixi – 1 yer
2. Beynəlxalq münasibətlər tarixi – 1 yer
3. Müəssisələrin təşkili və idarə olunması – 1 yer
4. Ümumi iqtisadiyyat – 3 yer
5. Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi – 3 yer

“Naxçıvan” Universitetinə doktorantura və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- *“Naxçıvan” Universiteti rektorunun adına ərizə;*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *4 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *iş yerindən xasiyyətnamə;*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və ona əlavənin müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

**Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi 1 “Naxçıvan” Universiteti şəhərciyi Telefon: (036)545-07-45**

### İtmişdir

Tağıyev Əvəz Tofiq oğlunun adına olan 688 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Məmmədov Cavid Sadiq oğlunun adına olan Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

* * *

Babək rayon Didivar kənd sakini Seyidov Mircəfər Məhərrəm oğlunun adına “Naxçıvan” Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 862